# AZƏRBAYCANDA XIX ƏSR MAARİFÇİ İRFAN HƏRƏKATI: HACI QURBAN ƏFƏNDİ MEŞLEŞİ NÜMUNƏSİNDƏ

**Əhməd NİYAZOV,**
*Azərbaycan İlahiyyat İnstitutunun*
*İslamşünaslıq kafedrasının müdiri*

***AÇAR SÖZLƏR:*** *Qafqaz, təsəvvüf, nəqşibəndilik, məzhəb, mənəviyyat, şeyx, mürid.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Кавказ, суфизм, Накшбандия, секта, духовность, шейх, ученик.*
***KEY WORDS:*** *Caucasus, Sufism, Naqshbandi, sect, spirituality, sheikh, disciple.*

**Giriş**

Faydalı olmaq insanın alın yazısıdır [1, s.7]. Potensial qüvvəyə malik insan təbiəti istehsal edən, quran, hadisələrin axarını lehinə çevirən xüsusiyyətə malikdir. Digər canlılardan fərqli olaraq, insan yaşamaq, qurmaq və yaratmaq üçün ağlın verdiyi imkanları bilmək məcburiyyətindədir. Bunun üçün də onun öyrənməsi və öyrətməsi zəruri təmələ əsaslanır.

Müsəlman cəmiyyətlərində elmə verilən dəyər tarix boyu öz yüksək keyfiyyətlərini qorumuş, İslam elm əldə etmə yollarını həmişə dəstəkləmişdir. İstər şəxsiyyət kimi Həzrət Peyğəmbər (s), istərsə də ona endirilən müqəddəs Qurani-Kərim elmin inkişafını dəstəkləyən referanslarla gəlmişdir. Kilsənin müəyyən dövrlərdə kitabxanaları yandıraraq[1] [2, s.76] bütpərəstliyə qarşı mübarizəni həm də elmi fəaliyyətə qarşı apardığı dəhşətverici tarixinin əksinə, İslam dini alimin mürəkkəbini şəhidin qanına bərabər tutmuş, hikməti müsəlmanın itmiş malı hesab etmişdir. İlk növbədə vurğulamalıyıq ki, İslamın müqəddəs kitabı Qurani-Kərimin elmə baxışı birmənalı olaraq müsbətdir. Quranın ilk ayəsi **"Oxu!"** əmri ilə gəlmiş [3, "Ələq", 1], oxumaq, öyrənmək fəzilət hesab edilmişdir. Müqəddəs Kitabımız **"De: "Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?!"** [3, "Zumər", 9], - deyərək elm xadimlərinin üstünlüyünə diqqət çəkmişdir. Qurani-Kərim elmi və elm xadimlərini üstün tutarkən onun məqsədi ictimai təşəkkülü elmi zəmində qurmaq olmuşdur. Həmçinin İslamın elçisi Həzrət Məhəmməd də "*Elm tələb etmək hər müsəlmana vacibdir*" buyurmuşdur [4, 10/195]. Deməк olar ki, Həzrət Məhəmmədin (s) ilk işi elmi qaranlıq zindanlardan gün işığına çıxarmaq və bəşər övladının gələcəyini aydınlatmaq olmuşdur [5, s.104].

İslam dininin bu xüsusiyyəti sufi düşüncədə özünəməxsus tərzdə inkişaf etmişdir. Məlumdur ki, irfan hərəkatında sufilərin elm sahibi olması prinsipi – "Bəqa" mühüm praktik təlimdir [6, s.161]. Həmçinin mürşid olmağın müəyyən şərtləri mövcuddur. Bu şərtlərin hər biri Quran və

1 Tədqiqatlar göstərir ki, Xristianlığın tarixi keçmişində, xüsusilə də Kilisənin elmə və elm adamlarına qarşı apardığı siyasət amansız olmuşdur. Tarixdə bunun nümunələri çoxdur [2, s.76]. Qaynaqlara görə, xalq arasında Xristianlığın nüfuzu artdıqca elmə və elmi fəaliyyətlərə qarşı Kilisənin mövqeyi daha şiddətli olmuşdur. Məsələn, astronomiya elmi ilə məşğul olan Theonun qızı, riyaziyyatçı Hipatia baş rahib Kirilin göstərişi ilə İskəndəriyyədə xalq tərəfindən qətlə yetirilmişdir. Hətta bu sahədə geniş tədqiqatları olan A.Adıvar onu elmin ilk şəhidlərindən adlandırmışdır [2, s.77]. Bununla yanaşı, Kopernik, Cordano Bruno kimi elm adamlarının Kilsə tərəfindən yandırılaraq cəzalandırılması, həmçinin Qalileo Qaliley kimi elm adamlarına da divan tutulması hələ də tənqid edilən məsələlərdəndir.

sünnəyə müvafiq olmaqla yanaşı, onlardan biri də mürşidin hər şeydən əvvəl elmi və əsərləri ilə tanınan biri olmasıdır [6, s.227]. Qeyd edək ki, Azərbaycanda mövcud olmuş irfan məktəblərindən biri də nəqşibəndilik məktəbidir. Bu irfan ənənəsi İsmail Siracəddin Şirvani Kürdəmiri ilə 1817-ci ildən etibarən bölgədə yayılmışdır.[2] Şirvaninin düşüncə sisteminin ən əsas təsiri dövrün mədəni maarifçilik sahəsində olmuşdur. O, mədrəsələrdə tədrisi ərəb dili əsas olmaqla, fars və türk dillərində qurmuşdur. Qərb mütəfəkkirlərindən qafqazşünas, dilçi alim Pyotr Karloviç Uslar özünəməxsus maarifçilik prinsipləri olan bu ənənənin ictimai təsirləri haqqında yazırdı: "*Əgər xalqın savadlılıq dərəcəsi dini məktəb nisbətində götürülərsə, onda Qafqazın bu hissəsi Avropanın maariflənmiş xalqlarını çoxdan arxada qoymuş olar*" [7, s.24].

Azərbaycanda meydana gəldikdən sonra nəqşibəndiliyin mücəddidi mahmudilik qolu da Qafqazın əksər hissəsinə yayılaraq maarifçilik hərəkatı ilə ictimai təsir dairəsini genişləndirmişdir. Bu irfan hərəkatının elmə və maarifçiliyə verdiyi töhfələr bir çox Avropa tədqiqatçısının diqqətini çəkmişdir[3]. Hərəkatın başında duran İsmayıl Siracəddin Şirvaninin (ö. 1848) nəsihət və tövsiyələrini qeyd edən Şüeyb b. İdris Əfəndi (ö. 1909) onun məktubunu qələmə alarkən bir təriqət şeyxinin ən mühüm xüsusiyyəti haqqında məlumat verir: "Allaha and olsun ki, yol göstərəcək mürşidin həm alim, həm də bildiyi ilə əməl edən olmasını şərt qoşan Allah Rəsulu (s) və onun sadiq dostu övliyalar doğru sözlüdür. Allahdan başqa heç bir güc və qüvvət yoxdur!" [11, s.145].

Məhz bu səbəblə sufi məktəblərində və təsəvvüf əhli düşüncəsində "**Alimlər peyğəmbərlərin varisləridir**" hədisi [12, Elm-1.] böyük məna kəsb edən amilə çevrilmişdir. Din-iman dərdi ilə dərdlənən, qayğıkeş, elm-irfan sahibi alimlər özlərini peyğəmbərlərin varisləri saymış, dinin təbliği işini bilavasitə maarifçilik zəminində yerinə yetirmişlər. Beləliklə, onlar həm də dinin ən mühüm amili sayılan "ya öyrədən ol, ya da öyrənən"[4] prinsipini həyata keçirmişlər. 1930-cu ilin repressiya qurbanlarından Hafiz Qurban Əfəndi də məhz belə simalardan biridir.

## I. XIX əsr Azərbaycanın Şimal-Qərb bölgəsində elmi mühit

Tariximiz barədə elmi mənbələrin hüdudsuz zənginliyinə baxmayaraq, tədqiqatı zəruri olan çox sayda dövr və bölgə mövcuddur. XIX əsrdə Car-Balakən və ətraf bölgələrdə (bugünkü şimal-qərbi Azərbaycan və qərbi Dağıstan bölgəsi) fiqh (İslam hüququ), dilçilik, bəlağət, məntiq, əqidə və təsəvvüf sahəsində yaşanan çox canlı bir dövrün ədəbi materialları olduqca zəngindir. Həmçinin sistemli mədrəsə ənənəsi ilə köklənmiş elm-irfan hərəkatı bölgəyə xas bəzi ənənələr də miras qoymuşdur. Məqaləmiz yuxarıda toxunduğumuz bu dövrü və bu dövrdə ərəb dilinə verilən əhəmiyyəti ehtiva edir.

---

2 İsmayıl Siracəddin Şirvani Kürdəmiri məşhur sufi Şeyx Xalid Bağdadidən (ö.1827) icazət alaraq Kürdəmirə gəlmiş və Şirvanda ilk nəqşibəndiyyə məktəbini quraraq öz təlimlərinə başlamışdır [8, s.63]. Bir ideya cərəyanı kimi bu sufi düşüncə öz həyat tərzi və əxlaq prinsipləri ilə yayıldığı hər yerdə bütün təbəqələrə dərin təsir göstərmişdir. İstər fərqli məzhəblərə mənsub müsəlmanlar arasında, istərsə də qeyri-müsəlmanlarla müsəlmanlar arasında birlik missiyasını həyata keçirə bilmişdir [9, s.249-254]. Təriqət Qafqazda bir əsrə yaxın ictimai təsir qüvvəsinə malik prinsiplər ortaya qoymuşdur. Nəqşibəndilik tarixindən də məlumdur ki, bu təriqətin sahib olduğu prinsiplər İslamın ümumbəşəri dəyərlərinə əsasalanır [10, 32/355].

3 Azərbaycanın şimal-qərb (Qanıq-Həftəran vadisi boyu) bölgələrində fəaliyyət göstərən nəqşibənd hərəkatı və onun bölgəyə qazandırdıqları dəyərlər haqqında baxın: Габуниа. Генерал Услар и Кавказские языки, с. 24, Эхо Кавказа, № 1, 1992; Dövrün təhsil haqqında tədqiqat nəticələri üçün baxın: В.Бартолд. Дагестан, Сочинения, с. 417-418, t. 3. М.: 1963; И.Ю.Крачковский. Сочинения, с. 571-616, t. 6, М.-Л.: 1960; Həmçinin bax: Əhməd Niyazov. XIX əsr Azərbaycanın Şimal Qərbində (Qanıx –Həftəran Vadisi) dini həyat, elm və mədrəsələr, Bakı: 2019, s. 153-203.

4 Həzrət Peyğəmbərin elm haqqında söylədiyi hədislərdən biri belədir: "Ya öyrədən ol, ya öyrənən ol, ya dinləyən ol, ya da elmi sevən ol. Nəbadə beşincisi olma (bunların xaricində qalma) ki, həlak olarsan" [13, 1/122].

XIX əsrin əvvəllərindən Azərbaycanın, xüsusilə şimal-qərb hissəsində güclü maarifçilik dövrü yaşanırdı. İstər alimlər, istərsə də üsul idarə təbəqəsi öz ideallarını həyat meyarı kimi qəbul edir, böyük səylə maarifçilik işi aparırdı. Bu dövrdə bölgədə yayılan təriqət ənənəsi kimi nəqşibəndilik mədrəsələrlə iç-içə (həm də elmi) fəaliyyəti inkişaf etdirən irfan yolu kimi yayılmışdı [9, s.65].

Təriqətin geniş yayıldığı Car-Balakəndə təhsil ocaqları, alimlər və onların ərsəyə gətirdikləri əsərlər bölgə üçün ən böyük töhfə idi. Təriqət əhli təkcə özlərini düşünmür, həmçinin hamının təhsilə qovuşmasını, elm-savad sahibi olmalarını arzu edirdilər [14, s.85-103].

Bu baxımdan elmsiz həyat, alimsiz cəmiyyət puç hesab edilirdi [9, s.160]. Çünki sosial və şəxsi həyatda ideal insan olmağın şərti kimi elmə üstünlük verilirdi. Bu meyarla qurulan güclü mədrəsə təhsili zəngin ərəb dili ədəbiyyatına sahib olması və güclü dil biliyi olan alimlərin mövcudluğu ilə öz fəaliyyətini genişləndirirdi.

İctimaiyyət arasında maarifçilik hərəkatına çevrilən mədrəsə təşkilatlanması sayəsində istər mədrəsə əhli, istər xalq arasında ərəb dilinə rəğbət olduqca yüksək idi. Bunun nəticəsi olaraq həm yazı mədəniyyətində, həm də şifahi xalq ədəbiyyatında ərəb dilinin təzahürlərinə həddindən çox rast gəlmək mümkündür. Məsələn, sufi alimlərin mənzumə yazılarının birində şeir dili ilə belə qeyd edilir:

**كُلُّ امْرِءٍ يَحْصُدُ مَا يَزْرَعُ ،**
**فَلْيَزْرَعِ الْإنْسَانُ مَا يَنْفَعُ.**
**وَ إنَّمَا أعْمَالُنَا مِنْ زرْعِنَا،**
**وَهذه الدّنْيَا لَنَا مَزْرَعٌ.**

“Hər kəs əkdiyini biçər. Elə isə insan faydalı olanı əksin!
Hərçənd, əməllərimiz əkdiklərimizdir. Bu dünya bizə bir əkin yeridir.”[5]

**II. Hafiz Qurban Əfəndi Meşləşinin elmi fəaliyyəti**

Hacı Qurban Əfəndi dövrün mənəviyyat öndərlərindən məşhur Molla Bəkri Əfəndinin oğludur. Məlumdur ki, Bəkri Əfəndi də mənəviyyatca zəngin bir ömür yolu keçmiş, insanların dünya və axirət qayğıları ilə dərdlənmişdir. XIX əsrin ikinci yarısında Car-Balakən bölgəsində geniş yayılan sufizm bölgədə bilavasitə maarifçiliyin yüksəlməsinə də xidmət etmişdir. Çünki yuxarıda da qeyd edildiyi kimi, sufi düşüncədə təhsil və tədris əhəmiyyət kəsb edən mövzulardandır. Ona görə də mədrəsə təlimində qayə həm yüksək elm, həm də dərin irfan sahibi şəxsiyyətlər yetişdirməkdi. Məhz həmin fəlsəfəyə görə, kamil insan arzusunda olan adamı elmsiz təsəvvür etmək olmazdı. Hacı Qurban Əfəndi məhz belə bir mühitdə yetişmiş alimdir.

Bəzi əsərlərindən və müəllimi Alqadarinin[6] verdiyi məlumatlardan aydın olur ki, o, bir

5 Şeirin əsli ərəbcə yazılmış sadəcə bu dörd misradan ibarətdir. Bu misralar XIX əsrdə Azərbaycanın şimal-qərb bölgəsində yaşamış sufilərin əlyazma məcmuələrindən əldə edilmişdir. Onun kimə aid olduğu bilinməsə də, dövrün mədəni irsi baxımından mühüm mənalar ifadə edir. Əlyazma parçası şəklində tapılan şeir hazırda bölgə muzeyində saxlanılır [15, ЗКМ КП – 34-63]. Məhz həmin bölgədə mədrəsə dili ərəb dili olmuşdur. Bölgə camaatının maariflənməsində ərəb dili xüsusi rol oynamış, mədrəsə əhli ən yüksək səviyyədə onun təlim və tədrisi ilə məşğul olmuşdur. Bunun nəticəsidir ki, məşhur rus şərqşünas alimi Bartold bölgə haqqında belə deyirdi: “*Heç bir qeyri-ərəb ölkəsində ərəb dili və ədəbiyyatı XX əsrin ortalarınadək bu cür tam canlılığını saxlamamışdır*” [16, s.417-418].

6 Həsən Əfəndi əslən balakənlidir. Onun atası Hacı Abdullah Əfəndi ibn Qurbanəli Aslan xanın dəftərdarı vəzifəsində ikən 1831-ci ildə Balakənə gəlmiş və burada Balakənli Şeyx Nuvar Əfəndinin qızı Hafisət xanımla evlənmişdir. İki il sonra (h. 11 cəmadiyəlaxir 1250-ci ildə) 15 sentyabr 1834-cü ildə Həsən Əfəndi dünyaya gəlmişdir. Həsən Əfəndinin dədəsi zahir elmlərin tədrisi ilə ətraf aləmdə məşhur alim

neçə mədrəsədə təhsil almışdır. Belə ki, Qurban Əfəndinin Car vilayətinə gəlməzdən əvvəl Rutul mədrəsəsində təhsil aldığı və dövrün məşhur alimlərindən Həsən Alqadarinin tələbəsi olduğu məlum olur [17, s.222]. Əsərlərinin fərqli ölkələrdə və hələ kataloqlaşdırılmamış vəziyyətdəki arxivlərdə saxlanması səbəbilə hafizliyini harada tamamladığı kimi bəzi məlumatlar tam tədqiq edilməmişdir. O, tədris fəaliyyətinə Car mədrəsələrində davam etmiş, xüsusilə Mamrux və Tala mədrəsələrində keçirilən dərslərdə yaxından iştirak etmiş, bölgə alimləri arasında məşhur olmuşdur.[7] Alimlərin xüsusi məclislərinə dəvət edilməsi ilə bağlı məktublar onun həm də ictimai xadim olmasından xəbər verir.[8]

Həmçinin tarixin canlı şahidləri olan əlyazmalar göstərir ki, o, Car-Tala, hətta Dağıstan mədrəsələrində, təhsil aldığı yerlərdə də müəllimlik etmiş, ustad olmuşdur. Bu haqda Abəslav Suğuri əl-Əndəli Mövlana Məhəmməd Əminin məntiq elminə aid **“ملا أغلي**/*Molla oğlu* **”** əsərinə yazdığı dərkənarda qeyd edir [15, ЗКМ КП6569].

Qurban Əfəndi elm aşiqi kimi təhsilini başa vurduqdan sonra da bu yola davam etmişdir. O, xalqın maariflənməsinə böyük əmək sərf etmiş, mütaliblərinə sevə-sevə biliklərin sirrini aşılayan, fədakar pedaqoq olmuşdur. Talalı Murtaza Alı Əfəndinin mədrəsəsində ərəb dili təlimi ilə bağlı “أمْثلة /*Əmsilə***”** kitabını şam ilə yatsı namazları arasında yazaraq Molla Murtaza Alının oğlu Aslan bəyə hədiyyə etməsi onun ülvi məqsədlərə hədəflənmiş qaya adamı olduğundan xəbər verir.[9]

Hacı Qurban Əfəndi Car-Tala bölgəsində elm xadimi kimi tanınmışdır. Bölgədə elm-irfan sahiblərinin yetişməsində maarifpərvər şəxs kimi böyük səy göstərmişdir. O, hələ mədrəsə müdavimi ikən öz işini sevən fəal elm həvəskarı olmuş, müəllimləri onu nümunəvi tələbə kimi göstərmişlər. Qazi Qumuq mədrəsəsi müəllimlərindən Hasan Əfəndi əl-Kuri onun haqqında belə qeyd edir: “Bizim tələbələrimiz arasında Meşleş kəndindən Hacı Qurban Əfəndi var idi. O, elm öyrənən mütaliblər arasında son dövrün ən məşhur və mahir tələbəsi idi. Allah-Təala həmişə onu müvəffəq etsin!” [17, s.222].

Hafiz Qurban Əfəndinin Quran dilinin tədrisi ilə yanaşı, “Quran xətti” hüsn-xətt sənətində də xidmətləri böyük olmuşdur. Məlumdur ki, “Kəhf” surəsinin cüz şəklində hüsn-xəttlə köçürülməsi İslam coğrafiyasında məhz bu bölgəyə xas Quran ənənəsidir. Hacı Qurban Əfəndi həm də bu ənənənin ən fəal davamçılarındandır. Onun öz dəst-xətti ilə yazdığı (bizə məlum olan) üç ədəd “*kəhfi-cüzü*” kalliqrafik miras baxımından ən gözəl nümunədir. Nəsx xətti ilə ərsəyə gəlmiş bu qiymətli əsərlər, ümumiyyətlə, bölgənin ən gözəl xətt nümunələrindəndir. Qeyd edək ki, onun “**kəhfi-cüzü**” əlyazmaları nəsx yazı növünün bölgəyə xas olan Tala nəsxi nümunəsini təşkil edir.[10]

olmuşdur. Onun tələbələri arasında Xas Məhəmməd Şirvani (q.s) belə olmuşdur ki, o, zahir elmlərini burada tamamladıqdan sonra İsmail Şirvani Kürdəmiri Nəqşibəndinin mənəvi təlimindən keçmişdir. Həsən Əfəndi atasının yanında yeddi yaşından Quranı öyrənməyə başlamış, on beş il ərzində ondan nəhv elmini mənimsəmişdir. Bu müddət ərzində digər alimlərdən məntiq, bəlağat, münəzara, hesab, fiqh, təfsir, hədis, üsul və bəyan elmlərini, eyni zamanda türk və fars dilini mükəmməl öyrənmişdir.
Böyük alim çar çinovniklərinin təqibləri və haqqında olan həbs qərarı ilə əvvəlcə Tabasana getmiş, bir müddət sonra oradan Balakənə gəlmiş və 1838-ci ildə vəfat etmişdir [17, s.4-5]. (Daha ətraflı məlumat üçün bax: Kamran Abdullayev. Divanu’l-Memnûn’a Göre Hasan Alkadârî’nin Hayatı, İlmî Kişiliği ve Kafkasya’daki Faaliyetleri // Karadeniz Texnik Universiteti, İlahiyyat Fakültəsi dərgisi, cild4, sayı 2, s.110-134)

7 Bu barədə məlumat Qurban Əfəndinin “Təsrif” kitabında dərkənar kimi qeyd edilir.

8 Belə bir məktub şəxsi kitabxanamızda mövcuddur.

9 Onun bu əlyazması Yuxarı Tala kənd sakininin şəxsi kitabxanasında qorunur.

10 Azərbaycanın şimal-qərb ərazilərində yazı mədəniyyətinin zirvə dövrü hesab edilən XVIII-XIX əsrlərdə daş kitabələrdə və əlyazmalarda nəsx xəttinə daha çox rast gəlmək olur. Bu bölgədə nəsx xətt növünə üstünlük verilmiş, hətta demək olar ki, burada həmin yazı özünəməxsus bəzi xüsusiyyətləri ilə seçilmişdir. Məlumdur ki, nəsx xəttinin bir neçə növü var: Nəstəliq, Hicaz nəsxi, Nəsx əl-fəzah, Nəsxul-hədis, İrani nəsx (neyrizi nəsxi), Osman nəsxi (yaquti və ya türk nəsxi) və Bağdad nəsxi (ərəb nəsxi). Hesab olunur ki, bunun bir digər nümunəsi məhz Car-Tala bölgəsinə aid, deyim yerindədirsə, “Tala nəsxi”dir. Qonşu bölgələrdə “Talanın incisi”nə mədhiyyələr yazılmışdır. Nəsxin digər növlərinin

Hafiz Qurban Əfəndi Meşləşinin astronomiya və ya nücum elminə dair bir neçə kitab və risaləsi mövcuddur. Onun "علم النجوم / *Elmi-nücum*" əsəri haqqındakı mülahizələr göstərir ki, o, Car bölgəsində təqvimin hesablanması və dini rituallara görə vaxtların təyini sahəsində elminə ən çox etimad edilən və hətta bu sahənin piri olmuşdur. Onun qələmə aldığı "أوقات الصلاة / *Əvqatus-salət*" və " الميقات في معرفة القبلة و الاوقات/*əl-Miqat fi mərifətil-qibləti vəl-əvqat*" əsəri bu haqda məlumat sahibi olmaq üçün kifayət edən dərin elm mənbələrindəndir. Təəssüf ki, müstəqilliyin bərpasının ilk dövrlərində onun "*Elmi-nücum*" əsəri itmişdir.

Hafiz Qurban Əfəndi seyri-süluku ilə nümunəvi mürid kimi həm də Nəqşi Xalidi irfan yolunun Mahmudiyyə qoluna bağlı sufi alim idi. Mənəviyyatca zəngin ömür yaşayan Qurban Əfəndi Car vilayətinin müxtəlif bölgələrində həmişə dərviş söhbətlərində iştirak etmiş, mənəviyyat iqlimindən aldığı feyzlə insanların könüllərinə sevgi seli kimi axmışdır. Allaha gedən yolda möminlərə yol göstərmiş, hər kəsin dərdi ilə dərdlənməyi sevmişdir.

Məlumdur ki, Qurban Əfəndinin atası da dövrün mənəvi böyüklərindən Bəkri Əfəndidir. Dua edən övlad yetişdirmək Peyğəmbərin (s) buyruğudur. Bəkri Əfəndi də bu yolun sadiqlərindən biri olaraq Qurban Əfəndi kimi elminə, ədəbinə və irfanına qibtə edilən maarifpərvər oğul böyütmüşdür. Elə bir övlad ki dövrün alimləri ona mədhiyyələr qoşmuş, onun şəninə qəsidə qələmə almışlar. Hacı Qurban Əfəndi kimi fəzilət və kamal sahibi bir alimdən ayrılmağına qüssələnən Həsən Əfəndi qəlbindəki hissləri öz "Divan"ında belə tərənnüm edirdi:

**عليك تحيتي في كل آن *** ايعلول المعارف والمعاني**
**سلام الله ما اطلعت قلوب ** * على اسرار آيات المثاني**
**على حَبر الحرى بكل فضل *** وينبوع الكمال عزيز شان**
**من افتخرت حجارة القدار *** بطلعته على خرز الجمان**
**لقد اشحنت داغستان علما *** واحييت الرميم من البيان**
**فزدت هدى وعلما كل يوم *** ودمت تنيل امثالي الاماني**
**واني دائما لك في دعاء *** بنيلك ما تشاء بلا توان**
تمّت [17, s.222]

"Sənə hər an salam deyirəm, ey mərifət və mənalar (dolu) bulud!
Qəlblər, daim təkrar olunan ayələrin sirlərinə məzhər olduqca, Allahın salamı,
Yaradılanların fəzilətli aliminin və kamal sahibinin, izzətli və qiymətli (zatın) üzərinə olsun!
Ocaq daşının, özünə qiymətli incinin gəlməsiylə iftixar etdiyi zat,
Dağıstanı elminlə doldurdun və çürümüş sümükləri bəyanınla diriltdin.
Hidayət və elm baxımından hər gün daha da artırdın.
Mənim kimilərini arzularına çatdırdın.
İstədiyin şeylərə gecikmədən nail olman üçün mən sənə hər zaman duaçıyam".

Qurban Əfəndinin əsərləri çap edilməmişdir. Onun yazdığı əlyazmalar pərakəndə halda müxtəlif elm mərkəzlərində, bəziləri muzeylərdə və bir qismi də şəxsi kitabxanalarda saxlanılır. Bu əsərlərin bəzilərinin ərəb dili üzrə sərf və nəhvə dair, nücum elmi adı ilə ifadə edilən astronomiyaya və fiqhə dair [9, s.147] və hətta riyaziyyat və həndəsəyə dair olduğu qeyd edilir [18]. Bunlar Zaqatala Tarix və Diyarşünaslıq Muzeyi, Dağıstan Elmlər Akademiyasının Əlyazmalar Fondu və Peterburq Əlyazmalar İnstitutunda qorunur.

əksinə, bu yazı üslubu qalınlıq kimi özünəməxsus gözəllik atributları ilə digər yazı nümunələrindən seçilir [9, s.282].

Meşləşli Hacı Qurban Əfəndi 1930-cu ilin repressiya qurbanlarından olmuşdur. Müsəlman qabaqcılların, xüsusilə də ziyalıların məhv edilməsi siyasətini həyata keçirən sovet rejimi aralarında Hafiz Qurban Əfəndinin də olduğu onlarla alimin güllələnmə əmrini vermişdir. Əliabad qəsəbəsində bir quyunun kənarına sıra ilə düzülən alimlər ordusu güllələnmişlər.

## Nəticə

Sufi məktəblərin düşüncəsində elm əhli "Alimlər peyğəmbərlərin varisləridir" hədisi əsasında məna qazanmışdır. Çünki onlara görə, din-iman dərdi ilə dərdlənən, qayğıkeş, elm-irfan sahibi alimlər həqiqi varislərdir. 1930-cu ilin repressiya qurbanlarından Meşləşli Hafiz Qurban Əfəndi məhz belə simalardan biridir.

Nəqşibəndilik XIX əsrdə Car-Balakən bölgəsində mədrəsə zəminində yayılaraq genişlənən irfan hərəkatına çevrildi. Bu hərəkatın üzvləri mədrəsələrdə fərqli məzhəbləri birləşdirən vəhdət konsepsiyasından çıxış etməklə yanaşı, ictimai-sosial həyatda fərqli konfessiyaların birlikdə yaşamaq arzusunu meydana gətirəcək tərzdə ictimaiyyəti qucaqlayan sosial mühit qururdular. Qafqazda Şirvandan başlayan bu irfan hərəkatı üç qola ayrıldı və onların arasında ən böyüyü Car-Balakən qolu oldu. Həmçinin Dağıstan xalqlarının da milli-azadlıq hərəkatının dinamizmini təşkil etdi. Həm müsəlmanların öz aralarında, həm də xristianlarla müsəlmanlar arasında bölgəyə xas birgəyaşayış ənənəsi meydana gətirməklə yanaşı, xalqın maariflənməsi işində böyük səy göstərmələri tarixin bu dövrü üçün əhəmiyyət kəsb edən amilə çevrildi. Belə ki, məhz həmin ənənə və tarixi nümunələr bu gün də xalqımızın tolerant dəyərlərində əks olunmaqdadır.

Digər tərəfdən, bu qol maarifçilik hərəkatının ən gözəl nümunələrindəndir. Mədrəsələrdə yetişənlərin əksəriyyəti təhsilini başa vurduqdan sonra müxtəlif bölgələrə dağılaraq alimlər ordusu kimi tədris fəaliyyətinə davam edirdilər. Həm müəllimlik sənəti, həm də bir alim kimi yazdıqları əsərləri ilə bölgə xalqının maariflənməsi işinə diqqət yetirirdilər. Hafiz Hacı Qurban Əfəndi belə simalardandır. Ancaq həyatının sonunda bölgənin maarifpərvər qabaqcılları arasında onu da güllələdilər. Sovet dövründə ateist sistemini alət kimi istifadə edən qəsbkar kommunistlər müsəlman qabaqcılları məhv etmək üçün hər yola əl atır, ziyalı təbəqəyə aman vermirdilər. Acı həqiqətdir ki, dövrün qəddar repressiya rejimi bəzi bədnamlar üçün fürsətə çevrilmişdi. Bölgədə yüz ilə yaxın davam edən maarifçilik fəaliyyəti sovet rejiminin qanlı basqınları, alimlərimizin və mədəni mirasımızın böyük hissəsinin məhv edilməsi ilə nəticələndi. Geri qalan bir qisim arxiv hesab edilən materiallar isə bu gün yavaş-yavaş işıq üzü görür və tozlu rəflərdən enərək yeni nəslin idrakına təqdim edilir.

# ƏDƏBİYYAT


1. Ernst Bloch. Rönesans Felsefesi Üzerine (Tercüman: Hüsen Portakal). İstanbul: 2010
2. Adnan Adıvar. Tarih Boyunca İlim ve Din. İstanbul: İstanbul : Remzi Kitabevi, 1944.
3. Qurani-Kərim (Tərcümə: Ziya Bünyadov-Vasim Məmmədəliyev). Bakı: 1991.
4. Ebü'l-Kasım Müsnidü'd-dünyâ Süleymân b. Ahmed b. Eyyûb et-Taberani. el-Muʿcemü'l-kebîr. Riyad: 1994, 10/195.
5. Şakir Gözütok. Rasûlullah (sav) Döneminde Eğitim ve Öğretim. İstanbul: 2014.
6. Mustafa Kara. Tasavvuf ve Tarikatlar Tarihi. İstanbul: 1995.
7. Габуниа. Генерал Услар и Кавказские языки // Эхо Кавказа, № 1, с. 24, 1992.
8. Rıhtım Mehmet, Xəlilli Fariz. Mövlanə İsmail Siracəddin Şirvani. Bakı: CBS Mətbəəsi, 2011.
9. Niyazov Əhməd. XIX əsr Azərbaycanın şimal-qərbində dini həyat, elm və mədrəsələr. Bakı: 2016.
10. Hamid Algar. Nakşibendilik, Diyanet İslâm Ansiklopedisi. İstanbul: 2006, 32/355.
11. Şueyb ibn İdris əl-Baqini. Ət-Tabaqatul-Xacəqan ən-Nəqşibəndiyyə və Sadatul-Məşayixil-Xalidiyyəl-Mahmudiyyə. Dəməşq: 1996.
12. Əbu Davud, Elm 1.
13. Nurəddin əl-Heysəmi. Məcməuz-zəvaid vəl-mənbəul-fəvaid. İstanbul: 2015.
14. Niyazov Əhməd. Azərbaycan mədrəsə tarixində ərəb dilinin əhəmiyyətinə ümumi bir baxış: XIX-XX əsrlər şimal-qərb bölgəsi nümunəsində // "Azərbaycanda ərəb dilinin tədrisi sahəsində mövcud vəziyyət və perspektivlər" mövzusunda konfransın materialları, Bakı, 2019.
15. ЗКМ КП-Zaqatala Tarix və Diyarşünaslıq muzeyi.
16. В.Бартолд. Дагестан, Сочинения, t. 3. M.: 1963.
17. Həsən Əfəndi Kurəvi əd-Dağıstani. "Divanul-Məmnun". Timurxanşura: 1913.
18. http://nasledie-sela.ru/places/DAG/1759/9705/

Ахмад Ниязов

**ИРФАНСКОЕ ДВИЖЕНИЕ XIX ВЕКА В АЗЕРБАЙДЖАНЕ: НА ПРИМЕРЕ ХАДЖИ ГУРБАНА ЭФЕНДИ МЕШЛЕШИ**

## РЕЗЮМЕ

По мнению исследователей, среди духовных школ, Накшибандия имеет традицию смешиваться с медресе и также развивать научную деятельность. Начиная с 19 века, эта секта, распространившаяся от Ширвана до Кавказа вместе с Исмаилом Сираджаддином Кюрдамири, разделилась на три основные ветви. Самым крупным из ветвь и наиболее распространенным с точки зрения социального воздействия является ветвь Джаро-Белокан. Яркий пример тому - действующие в этом регионе учебные заведения, группа зрелых ученых и их научная деятельность. Следует отметить, что это просветительское движение, которое длилось столетие в регионе, привлекло внимание востоковедов, таких как Бартольд, Крачковский, Услар и других. Это движение оказало влияние не только на научную, но и на социальную сферу. Таким образом, это движение, основывающее свои принципы на концепции единства, оказало беспрецедентное влияние в решении социальных проблем того времени. Наша цель - взять эти истины с пыльных полок истории и представить их нашему человеческому пониманию.

Ahmad Niyazov

**ENLIGHTENMENT MOVEMENT OF THE XIX CENTURY IN AZERBAIJAN: IN THE EXAMPLE OF HAJI GURBAN EFENDI MESHLESHI**

## ABSTRACT

According to researchers, among theological schools, Naqshbandiya has a tradition of mixing with madrasahs and also developing scientific activities. Since the 19th century, this sect, which spread from Shirvan to the Caucasus, along with Ismail Sirajaddin Kurdamiri, was divided into three main branches. The largest of the branch and the most widespread in terms of social impact is the Jar-Balakan branch. A striking example of this is the educational institutions operating in this region, a group of mature scientists and their scientific activities. It should be noted that this educational movement, which lasted a century in the region, attracted the attention of orientalists such as Barthold, Krachkovsky, Uslar and others. This movement has influenced not only the scientific, but also the social sphere. Thus, this movement, which based its principles on the concept of unity, had an unprecedented impact on the social problems of the time. Our goal is to take these truths from the dusty shelves of history and bring them to our human understanding.